**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ELŞAD VÜQAR oğlu ƏLİYEV**

# İNTERNET VƏ BƏDİİ PROSESİN İNKİŞAF DİNAMİKASI

*6203.01 – İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi*

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Estetika və informasiya mədəniyyəti" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Rəna Həbib qızı Abdullayeva**
*sənətşünaslıq üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Kübra Muxtar qızı Əliyeva**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

**Sadiqov Rafiq Kərim oğlu**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor*

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**

Dissertasiyanın müdafiəsi 5 dekabr 2014-cü ildə saat 14:00-da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində FD. 02.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1065, Bakı, İnşaatçılar prospekti 39. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının iclas otağı.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 4 noyabr 2014-cü ildə göndərilmişdir.

FD. 02.091 Dissertasiya Şurasının
Elmi katibi, pedaqogika üzrə fəlsəfə
doktoru, professor **M.C.Manafova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Üçüncü minilliyin informasiya-kommunikasiya texnologiyaları dövrü olduğunun canlı şahidi oluruq. Yeni informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən də, birinci növbədə İnternetin sayəsində dünyamız ümumi informasiya cəmiyyəti mühitinə çevrilmişdir.

İnformasiya cəmiyyəti dedikdə, elmi mənada elə bir cəmiyyət başa düşülür ki, burada çalışanların əksəriyyəti informasiyaların, xüsusilə də onun ən ali forması olan biliklərin istehsalı, saxlanması, emalı və tətbiqi ilə məşğul olurlar. Bu anlayış faktiki olaraq "postindustrial cəmiyyət" anlayışının yeganə alternativinə çevrilmişdir.

Əslində informasiya cəmiyyətinin formalaşması ibtidai icma cəmiyyətində bəşəriyyətin yaranması, dilin formalaşması kimi ilk kommunikasiya inqilabı ilə başlamışdır. Yazının kəşf edilməsi ilə əlaqədar ikinci inqilab mədəniyyətin bütün sahələrində inkişafa təkan vermişdir. Kitab çapına başlanması üçüncü informasiya inqilabı olmuşdur. Dördüncü inqilab elektrikin kəşfi ilə əlaqədar olmuşdur və s. Kompüter texnikasının yaranması ilə başlayan beşinci inqilab biliklərə əsaslanan informasiya cəmiyyətinin yaranmasına səbəb olmuşdur. İnformasiya cəmiyyətində mədəniyyətin rolu hədsiz dərəcədə artmışdır.

Yaradıcı insanın informasiya axınında düzgün istiqamətlənməsi üçün informasiya mədəniyyəti olmalıdır ki, bu da ümumi mədəniyyətin tərkib hissəsi kimi təzahür edir. Yaradıcı şəxsiyyətin informasiya mədəniyyəti dedikdə, onun İnternet resursları ilə məqsədyönlü işləmək qabiliyyəti, informasiyaların əldə olunması, emalı və ötürülməsi üçün kompüter texnologiyalarından, müasir texniki vasitələrdən və metodlardan bəhrələnmək bacarığı başa düşülür.

İnformasiya texnologiyaları əsri, yaradıcı insanın daxili potensialına, hər şeydən öncə isə onun intellektinə, yaradıcılıq qabiliyyətinə, öz imkanlarını reallaşdırmaq istəyinə və bacarığına, özünü hərtərəfli təsdiq etməyinə daha yüksək tələblər qoyur. Yaradıcı insanın daim dəyişən və yenilışən İnternet-mühitin şərtlərinə uyğunlaşması qabiliyyəti ona geniş yaradıcılıq üfüqləri açır və sərbəstlik verir. Bu isə bədii prosesin inkişaf dinamikasında özünü adekvat olaraq əks etdirir.

Beləliklə, tədqiqatın aktuallığı informasiya - kommunikasiya texnologiyalarının, o cümlədən İnternetin təsiri ilə bədii prosesin inkişaf dinamikasında baş verən irimiqyaslı dəyişikliklərin elmi-kulturoloji,

sənətşünaslıq, habelə fəlsəfi baxımdan təhlil və dərk olunması zərurətindən qaynaqlanır.

**Tədqiqatın məqsədi** informasiya cəmiyyətinin yaranması və inkişafı xüsusiyyətlərinin təhlil edilməsi, İnternet-texnologiyaların bədii prosesin inkişaf dinamikasına təsirinin şərtlərinin, meyllərinin, yollarının və üsullarının aşkara çıxarılmasından ibarətdir.

**Tədqiqatın obyektləri** formalaşan informasiya cəmiyyəti şəraitində İnternet və bədii prosesdir.

**Tədqiqatın predmeti** bədii prosesdə yaradıcı təxəyyülün və informasiya-texnoloji komponentinin qarşılıqlı asılılığı və qarşılıqlı təsiridir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru dissertasiyası çərçivəsində İnternet ilə bədii prosesin inkişaf dinamikasının qarşılıqlı təsiri və asılılığı probleminin əhatəli şəkildə öyrənilməsi çox çətindir. Ona görə də, bizim tədqiqatlarımız bu istiqamətdə ilk addım olduğu üçün, heç də bu problemi tam və əhatəli tədqiq etmək məqsədi güdmür. Tədqiqatlarımız üçün vacib olan vəzifə İnternetin bədii prosesin inkişaf dinamikasına təsiri mexanizmlərini aşkara çıxarmaqdan, belə bir araşdırmanın aparılması üçün metodologiyaların hazırlanması üçün ilk addımların atılmasına hazırlıq görməkdən, habelə tədqiqatın əsas istiqamətlərini müəyyən etməkdən ibarətdir. Bu baxımdan, tərəfimizdən problemin həllinə orijinal yanaşma ondan ibarətdir ki, İnternet ilə bədii prosesin inkişaf dinamikasının qarşılıqlı təsiri incəsənətdə tarixi proseslər və bu proseslər nəticəsində baş vermiş dəyişikliklər kontekstində araşdırılmalıdır. Tərəfimizdən təklif olunan yanaşma ənənəvi, o cümlədən filoloji, sənətşünaslıq, sosioloji, psixoloji və s. kimi yanaşma ideyalarını və metodlarını özündə ehtiva edən yeni tədqiqat paradiqması rolu oynamalıdır.

Bu mülahizələr **tədqiqatın aktuallığını** bir daha təsdiq edir.

**Mövzunun işlənmə dərəcəsi.** Yaradıcı təxəyyülün və bədii prosesin informasiya-texnoloji komponentinin qarşılıqlı asılılığının və təsirinin öyrənilməsi üzrə mövcud kulturoloji və sənətşünaslıq ədəbiyyatının elmi təhlili göstərir ki, tədqiqatın mövzusu fənlərarası xarakter daşıyır. Buna görə də, problemin əhatəli və kompleks şəkildə öyrənilməsi informatika, incəsənət, kulturologiya, fəlsəfə, psixologiya və sosiologiya sahəsində bilgiləri cəlb etməklə mümkündür.

Araşdırdığımız problemin ayrı-ayrı aspektləri sosioloqlar, psixoloqlar və filosoflar tərəfindən tədqiq edilmişdir. İnformasiya cəmiyyətinin yaranması problemi qloballaşma və kütləvi kommunikasiya vasitələrinin inkişafı problemləri ilə bağlı araşdırılmışdır.

İnformasiya cəmiyyətinin nəzəriyyəçiləri sırasında İ.Masuda, A.Toffler, M.Maklyuen, V.Benyamin və digər alimlərin adını çəkmək olar. Azərbaycanda informasiya cəmiyyətinin inkişaf problemləri ilə R.Abdullayeva, Ə.Salamzadə, İ.Məmməd-zadə, S.Məmmədəliyeva, M.Əli-zadə, V.Gərayzadə, T.Tağıyev, İ.Kərimov, A.Dadaşov, R.Əliquliyev, R.Aslanova, F.Məmmədov, F.Mustafayev, və digər alimlər məşğul olmuşlar. İnformasiya texnologiyalarının müasir cəmiyyətdə yerinin və rolunun qiymətləndirilməsi problemi bir çox Qərb alimlərinin, o cümlədəm, J.Bodiyar, J.Delez, U.Eko və s., habelə rus alimlərindən L.N.Qaqarina, İ.Q.Yeliner, V.J.Kelle, A.M.Podşibyakin, K.E.Razloqov, E.Q.Bağırov, O.V.Aronson, V.F.Poznin, A.V.Solovyov və digərlərinin diqqət mərkəzində olmuşdur.

XX əsrin əvvəli televiziyanın yaranması ilə əlamətdar olmuşdur. Hələ o vaxt bir sıra nüfuzlu alimlər televiziyanın şəxsiyyətə və bütövlükdə cəmiyyətə geniş miqyaslı təsirini araşdırmağa başlamışdılar. Belə ki, XX əsrin ikinci yarısında Marşall Maklyuen belə bir fikir söyləmişdi ki, elektron media vasitələrinin yaranması "Qutenberq qalaktikası"nın[1] süqutunu göstərir və oxumaqla məşğul olan "mətbəə insanı"nı artıq audiovizual məhsulların kütləvi istehlakçısı olan insan əvəz edir. Televiziya tamaşaçısının tənqidi düşüncə səviyyəsi aşağı olduğu üçün, habelə ekrandan söylənən fikirlərə şübhələnmədən inandığı üçün, onu idarə etmək daha asandır.

Bununla əlaqədar olaraq, İnternet fenomenini araşdıran U.Eko qeyd etmişdir ki, "tezliklə bizim cəmiyyət iki sinfə bölünəcək (və ya artıq bölünüb): TV-yə baxanlar, yəni dünya haqqında tənqidi seçimi olmadan informasiyalar, hazır obrazlar və mülahizələr alanlar, və ikincisi, kompüterin monitoruna baxan, məlumatları, informasiyaları seçməyi və emal etməyi bacaranlar"[2].

İnternet ilə bədii prosesin qarşılıqlı təsiri probleminin öyrənilməsi dərəcəsini təhlil edərkən qeyd etməliyik ki, bu problemin ciddi, sistematik tədqiqi olmamışdır. Bu sahədə çoxlu məqalələr dərc olunsa da, onları dərin tədqiqatların nəticəsi kimi qəbul etməyə heç bir əsas yoxdur.

Bir çox tədqiqatçılar real aləmlə virtual aləmi qarşı-qarşıya qoyurdular. Məsələn, yuxarıda haqqında danışdığımız, kanadalı filosof M.Maklyuen belə hesab edirdi ki, bütün bəşəriyyətin qavrama tarixi informasiyaların

---

[1] Kitab çapında yeni era İ.Qutenberqin təxminən 1440-cı ildə kəşf etdiyi üsul ilə başlamışdır.

[2] Эко У. От Интернета к Гутенбергу // Новое литературное обозрение, 1998, N 32. - С. 8.

təqdimat üsullarının daim dəyişməsi ilə əlaqədardır. Məsələn, reallığın tirajlanan obrazlarının çoxəsrlik ənənələrinin əsasında kitab çapı durur. Kitab çapı ilk oxucu auditoriyasını yaratmış, bu gün isə müasir insanın hissiyyatının yaranmasında bu rolu fotoqrafik təsvirlər, kino və televiziya obrazları oynayır[3].

İncəsənət əsərlərinin texniki, o cümlədən rəqəmsal, virtual təkrar istehsalı imkanının yaranması informasiyanın təqdimatı üsulunu dəyişdi, bunun da nəticəsində, alman filosofu, fotoqrafiya tarixçisi Valter Benyaminin haqlı olaraq qeyd etdiyi kimi incəsənət əsərlərinin istehlakçısı ayrıca bir fərd deyil, kütlələr oldu[4]. İncəsənət əsərinin rəqəmsal tirajlanması onun statusunu dəyişdi. Özündə böyük dəyər daşıyan, unikal bir sənət əsəri, adi bir istehlak vasitəsinə çevrildi. Çünki, reproduksiyada və virtual obrazda olan bir əşya öz nüfuzunu itirir, ənənədən kənarda qalır, ümumiləşir, hamı üçün əlçatan olur.

Bununla bərabər qarşılıqlı, paralel proses də gedir – informasiya texnologiyalarının təsiri altında incəsənət öz xarakterini dəyişir. Əgər yeni texnologiyalar dövrünə qədər incəsənət reallığı virtuallaşdırmaq texnologiyası idisə, bu gün bu sərhəd itir. Bir tərəfdən, müasir incəsənət İnternetdən gələn ifadə vasitələri ilə zənginləşir, çünki İnternetin təklif etdiyi virtuallaşma üsulu yüksək intensivliyi ilə fərqlənir. Əvvəllər böyük zəhmətlə başa gələn şeylər, informasiya texnologiyaları sayəsində daha asan və effektiv yaradılır. Digər tərəfdən, bədii prosesin məhsulları – rəssamların tabloları, bəstəkarların musiqisi və b.k. – İnternet resurslarında, bloqlarda, Veb-səhifələrdə yerləşdirilir, bununla da elektron resursları zənginləşdirir.

Beləliklə, informasiya nəzəriyyəsinin nailiyyətləri bu gün humanitar sahə ilə birləşərək İnternetdə ayrılmaz tamlıq təşkil edir. Bu azmış kimi, min illər boyunca sənət əsəri ilə onun tamaşaçısı, dinləyicisi, oxucusu arasındakı ənənəvi olmuş münasibətlər "əsər – nəticə", "əsər – istehlakçı" düsturuna uyğun idisə, İnternetdəki əsər bir çox hallarda gördüyümüz kimi tamamlanmamış sənət məhsuludur, sanki daimi interaktiv prosesdədir.

Müxtəlif ölkələrin humanitar-alimləri müasir dünyada İnternetin yaradıcı insanın həyatına təsiri ilə maraqlanırlar. Lakin, bu gün bu problemin tam öyrənildiyini demək hələ çox tezdir. Belə ki, incəsənətin bir çox sahələrində, o cümlədən, memarlıqda, təsviri incəsənətdə, musiqidə,

---

[3] Маклюэн М. Понимание медиа: внешние расширения человека. - М.: Кучково поле, 2007, 464 с.

[4] Беньямин В. Произведение искусства в эпоху его технической воспроизводимости. Избранные эссе / Под. ред. Ю.А.Здорового — М.: Медиум, 1996.

teatr sənətində, kinomatoqrafiyada, televiziyada və KİV-də İnternetin təsirinin təhlili hələlik yoxdur. Belə bir təsirin olması üçün əsaslı zəmin vardır. İnternetin bədii prosesə təsirinin hələlik elmi əsasları olmadığı üçün apardığımız tədqiqatlarda bu təsirin bir neçə forması eyni vaxtda təsvir və təhlil olunmuşdur.

Ümumiyyətlə, sənətşünaslıq baxımından İnternet şəbəkəsinin bədii prosesin inkişaf dinamikasına təsiri praktik olaraq təfsilatlı və hərtərəfli tədqiq olunmamışdır.

**Tədqiqatın vəzifələri.** Mövzunun kifayət qədər öyrənilmədiyini nəzərə alınaraq, tədqiqatın qarşısında qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** həll edilməyə çalışılmışdır:

- bəşəriyyətin müxtəlif inkişaf mərhələlərində informasiya cəmiyyətinin formalaşmasında mədəni informasiya daşıyıcılarının və kommunikasiya vasitələrinin tarixi rolunu təhlil etmək, onların tarixi inkişaf qanunauyğunluqlarını aşkara çıxarmaq;
- yaradıcı insanın informasiya mədəniyyəti fenomeninin formalaşması prosesini tədqiq etmək;
- informasiya texnologiyalarının mədəniyyəti inkişaf etdirmək potensialının intensivləşdirilməsində müasir elmi-texniki paradiqmanın rolunu müəyyənləşdirmək;
- yaradıcılıq və quruculuq prosesinin sadələşdirilməsində və "kütləvi" mədəniyyət seqmentinin genişləndirilməsində İnternet-texnologiyaların rolunu əsaslandırmaq;
- bədii prosesdə istifadə olunan texniki və İnternet-texnoloji imkanları nəzərə almaqla incəsənətin təkamülünü izləmək;

Bədii prosesdə, art-məhsulun yaradılmasında İnternet-texnologiyaları tətbiq etməklə yeni bədii-ifadə vasitələrindən istifadə üzrə mütərəqqi meylləri aşkara çıxarmaq;

- qloballaşmanın təzahürü olaraq, müxtəlif audiovizual informasiyaların və kommunikasiyaların konvergensiyası və inteqrasiyası proseslərinə baxmaq;
- bədii informasiya mühitində, bədii üsulların və dünyagörüşü yanaşmalarının reallaşdırılmasının ali forması kimi sintetik incəsənət nümunələrinin yaradılmasında "üslub" anlayışının mahiyyətini təhlil etmək;
- İnternet texnologiyalarının ictimai həyata və incəsənətin inkişafına təsirinin neqativ tərəflərini aşkara çıxarmaq;

- informasiya cəmiyyətinin aparıcı üslublarının inkişaf perspektivlərini və “sintetik incəsənət”in yaranması meyllərini, habelə kütləvi və elitar mədəniyyət arasında fərqlərin silinməsini proqnozlaşdırmaq;

- Azərbaycanda informasiya texnologiyalarından istifadə mədəniyyətinə təsir edən şərait və amilləri təhlil etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Təqdim olunan sənətşünaslıq tədqiqatının metodikası tam və əhatəli olaraq İnternetin əsas xüsusiyyətləri ilə müəyyən olunmuşdur ki, bu da onun humanitar biliklərlə yaxınlığını şərtləndirmişdir. Bu xüsusiyyətlər birinci fəslin sonunda qısaca olaraq sadalanmış, əyanilik və anlaşıqlı olması üçün müxtəlif nümunələrlə verilmişdir.

Tədqiqatda müasir sənətşünaslıq metodları ilə bərabər digər humanitar elmlərin metodoloji alətlərindən də istifadə olunmuşdur.

Tədqiqatlarda İnternet texnologiyaların cəmiyyətə və yaradıcı şəxsiyyətə təsirinin müxtəlif aspektlərini öyrənmiş bir çox alimlərin, o cümlədən R.Abdullayeva, Ə.Salamzadə, İ.Məmmədzadə, S.Məmmədəliyeva, M.Əlizadə, V.Gərayzadə, İ.Kərimov, A.Dadaşov, T.Tağıyev, F.Mustafayev, R.Əliquliyev, R.Aslanova, L.N.Qaqarina, E.Q.Yeliner, V.J.Kelle, A.M.Podşibyakin, K.E.Razloqov, E.Q.Bağırov, O.V.Aronson, V.F.Poznin, A.V.Solovyov, M.Q.Maklyuen, Y.Masuda, Q.Reynqold və başqalarının əsərləri mühüm əhəmiyyət daşımışdır.

**Tədqiqatın elmi yeniliyi** ondadır ki, ilk dəfə olaraq İnternet ilə bədii prosesin inkişaf dinamikası arasında qarşılıqlı təsirin və asılılığın nəzəri və praktik aspektlərinin hərtərəfli aşkara çıxarılmasına və problemin aktuallığının əsaslandırılmasına cəhd göstərilmişdir.

İnternet şəbəkəsinin inkişafı ilə sivilizasiyanın yeni inkişaf mərhələsi olan informasiya cəmiyyətinin yaranması arasında qarşılıqlı əlaqə müəyyən olunmuşdur.

Bunlardan əlavə, dissertasiyanın ərsəyə gəlməsinə nəzəri və metodoloji hazırlıq mərhələsində İnternetin bədii prosesə mərhələli təsir konsepsiyası tərtib olunmuşdur.

**Tədqiqatın nəzəri-praktiki əhəmiyyəti.**

Tədqiqatın materialları və nəticələri bədii prosesi optimallaşdırmağa və təkmilləşdirməyə, İnternet texnologiyalar vasitəsi ilə onun dinamikasını əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa, habelə bütün dünyada, o cümlədən də, Azərbaycanda mədəniyyətin və incəsənətin inkişafında istifadə etməyə imkan verəcəkdir.

Dissertasiyanın materialları ayrı-ayrı yaradıcı şəxsiyyətlər, multimedia əməkdaşları, televiziya, kino, kinomatoqrafiya, teatr, kitabxana, muzey və

qalereyalar, habelə mədəniyyət və incəsənət sahəsində mədəni siyasətin idarəolunması orqanlarının əməkdaşları üçün maraq kəsb edə bilər.

İncəsənət və informasiya texnologiyaları sahəsində milli kadrların hazırlanmasında, habelə sənətşünaslıq, sosiologiya, mədəniyyət tarixi və s. üzrə mühazirələrdə dissertasiyanın materiallarından istifadə oluna bilər.

Tədqiqatdan alınmış nəticələr əsasında aşağıdakı, **müdafiəyə çıxarılan müddəalar** əsaslandırılmışdır:

1. Bəşəriyyətin bütün inkişaf mərhələlərində mədəni informasiya daşıyıcıları və kommunikasiya vasitələri informasiya cəmiyyətinin mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Mədəni informasiya daşıyıcılarının və kommunikasiya vasitələrinin tarixi inkişaf qanunauyğunluqlarının təhlili göstərir ki, bəşəriyyətin inkişafı ilə "informasiya cəmiyyəti"nin strukturu, habelə mədəni informasiya daşıyıcıları və kommunikasiya vasitələri də, daha mürəkkəb olmuş, onun elementləri insanların yalnız məişətini və cəmiyyətini deyil, həm də onun mənəvi dünyası ilə bağlı anlayışları və kateqoriyaları da ehtiva etmişdir.
2. Müasir informasiya cəmiyyətinin inkişaf ehtiyacları incəsənətdə İnternet-texnologiyaların aparıcı rolunu vacib edir, belə ki, o, müasir dövrün operativlik, informativlik, əyanilik tələblərinə cavab verir, universal informasiya mühiti yaradır və özündə kitabın, təsviri incəsənətin, musiqinin, fotoqrafiyanın, kinonun, televiziyanın, teatrın və başqa sənətlərinin imkanlarını ehtiva edir.
3. İnformasiya cəmiyyəti, ümumiyyətlə incəsənətin, o cümlədən bədii prosesin inkişafında yeni inkişaf mərhələsi olub, İnternet-texnologiyaların yüksək kommunikasiya sürəti ilə xarakterizə olunur ki, bu da elm yüklü informasiya və kompüter texnologiyaları ilə təmin olunur.
4. İnternet ilə bədii prosesin inkişaf dinamikası arasındakı qarşılıqlı təsiri və asılılığı probleminin öyrənilməsi dərəcəsinin elmi təhlili göstərir ki, müxtəlif ölkələrin alimləri bu problemlə maraqlanırlar. Ancaq bu təsirin tam halında memarlığı, təsviri incəsənəti, musiqini, fotoqrafiyanı, kinomatoqrafiyanı, televiziyanı və KİV-i əhatə edən aspektləri təhlil olunmamışdır. Problem üzrə elmi-sənətşünaslıq ədəbiyyatının təhlili göstərir ki, bir çox tədqiqatçılar real və virtual məkanı qarşı-qarşıya qoyur. Əgər yeni texnologiyalar dövrünə qədər incəsənət reallığın virtualizasiyası texnologiyası idisə, bu gün bu sərhəd itməkdədir. Müasir incəsənət İnternetdən aldığı ifadə vasitələri ilə

getdikcə daha da zənginləşir, çünki onun təklif etdiyi virtualizasiya üsulu yüksək intensivliyi ilə fərqlənir.

5. İnformasiya mühitinin bədii məkanı multi-üslubiyyatlı quruluşa malikdir və burada üslub bədii prosesdə bədii priyomların və dünyagörüşü yanaşmalarının birliyini reallaşdırmağın ali forması kimi başa düşülür.
6. "Kütləvi" mədəniyyət seqmentinin genişlənməsində yaradıcı, qurucu prosesi sadələşdirmiş İnternet-texnologiyaların rolu əsaslandırılmışdır. Bunun nəticəsində "kütləvi" mədəniyyətin əksər hissəsinin fərqləndirici cəhəti ifadə vasitələrinin, o cümlədən texnika və texnologiyaların yaradıcı istidafəsinin minimuma endirilməsidir.
7. İncəsənətin təkamülünün ikili xarakteri əsaslandırılmışdır. Belə ki, bu yalnız sosial-mədəni paradiqmanın dəyişməsi ilə deyil, həm də bədii prosesdə istifadə olunan yeni texniki və İnternet-texnoloji imkanların yaranması ilə əlaqədardır.
8. Yaxın gələcəkdə bədii prosesin inkişafında aparıcı üslub kimi "sintetik incəsənət"in yaranması, bədii çoxçalarlılığın olması, kütləvi və elitar mədəniyyətlər arasında fərqlərin itməsi meyllərini qeyd etmək olar.
9. Azərbaycanda informasiya-texnologiyalarından istifadə mədəniyyətinə təsir edən amillərin və şəraitin təhlili aşağıdakı xüsusiyyətləri aşkara çıxardı: İnternetə giriş üzrə ilk təcrübə, yeni texnologiyalarla işləmək zərurətinin dərk edilməsi və vərdişlər qazanılması məktəbdən başlayır, ali məktəbdə təkmilləşir; Azərbaycan sakinlərinin iş yerindən, habelə evdə şəxsi kompüterindən İnternetə girişinin təmin olunması Azərbaycanın iqtisadi və mədəni çiçəklənməsinin göstəricisidir.

**Tədqiqatın nəticələrinin aprobasiyası** bir sıra beynəlxalq, respublika səviyyəli və digər elmi konfranslarda həyata keçirilmişdir: Tələbələrin "Dəyişən dünya və gənclik" mövzusunda beynəlxalq konfransı (Bakı, 30 aprel 2004-cü il); "Elmdə və təhsildə informasiya kommunikasiya texnologiyaları" mövzusunda II Beynəlxalq elmi-praktiki konfrans (Bakı, 30 aprel 2004-cü il); "Qloballaşma kontekstində humanitar elmin problemləri" mövzusunda II Beynəlxalq elmi-praktik konfrans (Yoşkar-Ola, Rusiya, 15 fevral 2012-ci il); XVI Beynəlxalq elmi-praktik konfrans ADİT-2012 (Kareliya, Rusiya, 2012-ci il); "XXI əsrdə elm" mövzusunda I Beynəlxalq konfrans (Bakı, 25-26 avqust 2012-ci il); "İnsan – Mədəniyyət – İncəsənət – Yaradıcı şəxsiyyət" mövzusunda V Beynəlxalq elmi konfrans (Luqansk, Ukrayna, 4-6 fevral 2013-cü il); "İnsan – Mədəniyyət – İncəsənət – Yaradıcı şəxsiyyət" mövzusunda VI Beynəlxalq elmi konfrans (Luqansk, Ukrayna, 5-6 fevral 2014-cü il); "Müasir informasiya

cəmiyyətində elm” mövzusunda Beynəlxalq elmi praktik konfrans (Moskva, Rusiya, 3-4 aprel 2013-cü il); “Azərbaycan teatrı – 140” elmi-praktik konfransı, (Bakı, 27 noyabr 2013-cü il); “Müasir sosial-mədəni məkanda təsviri incəsənətin yaranması” mövzusunda V Ümumukrayna elmi-praktik konfransı (Luqansk, Ukrayna, 20-21 fevral 2014-cü il); “Müasir mərhələdə çoxdilli təhsilin aktual məsələləri” mövzusunda Beynəlxalq elmi-praktik konfrans (Almatı, Kazaxstan, 25 aprel 2014-cü il); “Audiovizual sənətlərin müasir informasiya cəmiyyətində rolu” mövzusunda Respublika elmi-praktiki konfransı, 4-5 iyun 2014-cü il, Bakı, Azərbaycan, habelə Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun elmi seminarında məruzə olunmuşdur.

**Çap işləri.** Dissertasiya işinin mövzusu üzrə 20 iş, o cümlədən 9 məqalə və 11 konfransda məruzələrin tezisləri çap olunmuşdur. Məqalələr Azərbaycan, Rusiya və Ukrayna AAK-ları tərəfindən tövsiyə olunmuş jurnallarda çap olunmuşdur. Məqalələrdən biri isə Rusiyada nəşr olunan yüksək impakt faktorlu elmi jurnalda işıq üzü görmüşdür.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi girişdən, dörd fəsildən, əsas nəticələrdən, illüstrativ material albomundan və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. İşin həcmi 165 səhifədir. Dissertasiyada 286 adda ədəbiyyatdan istifadə edilmişdir. Dissertasiyada 15 illüstrasiyadan istifadə olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, mövzunun işlənmə dərəcəsi, işin məqsəd və vəzifələri, elmi-nəzəri metodoloji əsasları, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti açıqlanır.

Dissertasiyanın “**İnformasiya cəmiyyətinin yaranması və formalaşması**” başlıqlı I fəsli üç yarımfəsildən ibarətdir.

I yarımfəsil “Məsələnin qoyuluşu: dissertasiya işinin mövzusu üzərində düşüncələr” adlanır. Burada mövzunun adı ilə birbaşa və ya dolayısı ilə bağlı olan əsas anlayışların məzmununu incələnmişdir. Qeyd edilmişdir ki, tədqiqatlar informasiya texnologiyalarına deyil, sənətşünaslığa həsr olunmuşdur, buna görə də, *İnternet* sözü altında fiziki şəbəkə və ya məsələnin texniki tərəfi deyil, *Ümumdünya şəbəkəsi* və ondakı *informasiya* nəzərdə tutulur. Yeni informasiya və kompüter texnologiyalarının bədii əsərin və obrazın daxili quruluşunun dəyişməsini necə stimullaşdırması ciddi təhlil edilmişdir.

II yarımfəsil müxtəlif dövrlərdə bəşəriyyətin informasiya cəmiyyətini formalaşdıran informasiya daşıyıcılarının və kommunikasiya vasitələrinin tarixi inkişaf qanunauyğunluqlarının aşkara çıxarılmasına həsr olunmuşdur. Zəngin tarixi materialın təhlili əsasında göstərilmişdir ki, bəşəriyyətin inkişafı ilə "informasiya cəmiyyəti"nin strukturu da mürəkkəbləşmiş, onun elementləri insanın və cəmiyyətin yalnız məişətini deyil, tədricən onun mənəvi dünyası ilə bağlı anlayış və kateqoriyaları da özündə ehtiva etmişdir. Mədəni informasiya daşıyıcılarının informasiya tutumu artdıqca və kommunikativlik operativliyi çoxaldıqca bu mədəniyyətin və incəsənətin inkişafına da bir o qədər güclü təkan verimişdir. Bizim aşkara çıxardığımız ən mühüm qanunauyğunluq ondan ibarətdir ki, mədəni informasiya daşıyıcılarının tarixi inkişafı spiralvari xarakter daşıyır. Məsələn, Qobustan qayaüstü rəsmləri və qraffiti; Babilistanda eramızdan 2000 il əvvəl mövcud olmuş "möhür-imza" və bu günlərdə yaradılan və tətbiq olunan "elektron imza"-nın müqayisəsi. Bəşər cəmiyyəti hər bir fərdin imzasını özü ilə gəzdirməsi məsələsinə 4000 ildən sonra yenidən qayıdır. Sadəcə qədimdə onu boyunlarında gəzdirmişdilər, indi isə flaş-kartlarda gəzdirirlər. Bu spiralın hər bir pilləsi cəmiyyətin inkişafının böyük bir dövrünü əhatə edir. Əgər Qobustan qayaüstü rəsmləri ilə qraffiti sənətini müqayisə etsəydik bu spiral 40 min ildən çox bir zaman kəsiyini əhatə edərdi.

III yarımfəsil "İnformasiya cəmiyyətinin yaranması dinamikası" adlanır. İnformasiya cəmiyyətinin aparıcı nəzəriyyəçilərindən olan İ.Masudanın irəli sürdüyü modeli qəbul edərək, qeyd etməliyik ki, "...informasiya cəmiyyəti" o qədər ümumiləşmiş anlam daşıyır ki, o, sosial - mədəni həyatın bütün sahələrini onların informasiya cəmiyyətinə münasibətindən asılı olmayaraq özündə əhatə edir. İnformasiya cəmiyyətinin strukturu cəmiyyətin yalnız sosial şəraitinin elementlərini ehtiva etmir, həm də insanın və cəmiyyətin mənəvi həyatı ilə bağlı anlayış və kateqoriyaları da ehtiva etməyə çalışır. Çox vaxt bu onunla əlaqədar olur ki, "informasiya cəmiyyəti informasiya məhsulunun istehsalına və istehlakına yönəldiyi üçün indiyə qədər mövcud olmuş sosial-mədəni formasiyalara nisbətən mədəniyyət sahəsinə daha yaxındır"[5]. İnformasiya cəmiyyətinin spesifikliyini müəyyən edən əsas komponent virtual məhsulu istehsal etmək və əlçatan etmək üçün zəruri mühiti yaradan informasiya texnologiyalarıdır. Bundan əlavə kommunikasiya komponenti də informasiya cəmiyyətində həlledici rol oynayır, belə ki, məhz yeni

[5] Masuda Y. The Information Society as Postindustrial Society. Wash: World Future Soc., 1983, p.12.

kommunikasiya vasitələrindən istifadə olunması, sosiumun içərisində informasiyaların ötürülməsində yaranan problemləri azaldır, geniş fəza paylanmasına malik sosial şəbəkələrin yaranması prosesini sürətləndirir.

Burada iki mühüm məqam da vurğulanır. İnformasiya cəmiyyətində bədii prosesin inkişaf dinamikasını başa düşmək üçün, hər şeydən öncə, onun mövcud olduğu mühiti – informasiya cəmiyyətini təsvir etmək lazımdır. İkincisi, informasiya cəmiyyətinin dinamikası elədir ki, elmin müxtəlif sahələri haqqında nəhəng miqdarda informasiyaların toplanması, saxlanması, zamandan və məkandan asılı olmayaraq İnternetdə əlçatan olması sübut edir ki, biz tədricən biliklər cəmiyyətinə keçirik.

Dissertasiyanın "**İnformasiya texnologiyaları dövründə bədii prosesin xüsusiyyətləri**" başlıqlı II fəsli üç yarımfəsildən ibarətdir.

I yarımfəsildə informasiya cəmiyyətinin mənşəyi və "postmodernizm"in mahiyyəti araşdırılır. Hər bir dövrün mədəniyyəti sanki keçmişi "yaddan çıxarmır", onu müasirləşdirir. Mahiyyət etibarı ilə ənənə - keçmişin mədəniyyətinin aktuallaşmasıdır, keçmiş mədəni təcrübənin səfərbər olmasıdır.

Yeni informasiya-kommunikasiya texnologiyalarının yaranması və təşəkkülü cəmiyyətin inkişaf dinamikasını sürətləndirdi, incəsənətdə adekvat reaksiya yaratdı, yeni dövrün – postmodernizmin - başlanğıc nöqtəsi oldu[6]. Biz postmodernizmi informasiya cəmiyyətinin incəsənəti hesab edirik. Qədim incəsənət hər şeyi məkanla düşünürdü. Yeni dövrün incəsənəti zamanla düşünürdü. Ən yeni dövrün incəsənəti isə eyni vaxtda həm məkan, həm də zaman düşüncəli olacaqdır. Təsadüfi deyil ki, "xronotop" (zaman-məkan) kateqoriyası məhz bizim dövrümüzdə kəşf olunmuşdur. Bunu isə yeni bədii təfəkkürün xarakteristikası hesab etmək olar.

II yarımfəsildə "İnformasiya və kompüter texnologiyaları dövründə qavrama, bədii dərketmə və yaradıcılıq prosesləri" tədqiq olunmuşdur. Sənətkar yaşadığı dövrdə, öz cəmiyyətində, sənətşünaslıqdan mövcud üslublarda qəbul olunmuş qaydaları alaraq öz əsərini qurub, yaradır. Bu zaman müəyyən ikiləşmə təhlükəsi yaranır. *Birincisi*, əgər sənətkar mövcud qaydaları mütləq hesab etsə, onlara ciddi əməl etsə, ola bilər ki, yeni bir şey yaratmasın. Axı incəsənətdə o zaman yenilik olur ki, sənətkar mövcud ənənəri dəf edərək, yeni ideyalar versin və yeni qanunauyğunluqlar kəşf etsin. Bu gün gənc və sənətdə diletant olanlar bu ideyaları və qaydaları İnternetdən əldə edirlər, məharətlə "özəlləşdirirlər" və şəxsi art-

---

[6] Грицанов А.А. Новейший философский словарь. Постмодернизм.–М.: Современный литератор, 2007, 816с.

məhsullarına çevirirlər. *İkincisi*, incəsənətə elmi yanaşmanın analitik, intellektual xarakteri gərək onun sintetik, bədiilik baxımından həssas duyumu ilə vəhdətdə olsun.

III yarımfəsildə İnternetin və bədii prosesin qarşılıqlı təsiri və asılılığı probleminin öyrənilməsi dərəcəsi araşdırılmışdır. Mövzu üzrə mövcud elmi-kulturoloji və sənətşünaslıq ədəbiyyatının icmalı və təhlili əsasında məlum olmuşdur ki, bu istiqamətdə çoxlu sayda məqalələr və kitablar dərc olunsa da, indiyə qədər bu problem ciddi tədqiq olunmamışdır. Əksər məqalələr İnternetin qloballaşma proseslərində rolu kontekstində aparılmış tədqiqatların nəticəsidir.

Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri S.Yu.Məmmədəliyeva[7], R.Aslanova[8], İ.R.Məmmədzadə[9], N.M.Məmmədov[10], L.N.Qaqarina[11] və b. monoqrafiyalarında baxılmışdır. İnformasiya cəmiyyətinin mədəniyyətində üslubiyyət məsələləri S.H.Abdullayeva[12], postmodernizm və ənənə məsələlərinə T.Tağıyev[13], multimedia mədəniyyəti məsələlərinə İ.Q.Yeliner[14], ekran sənətində ifadə vasitələri məsələlərinə V.F.Poznin[15] və b. tədqiqatlarında baxılmışdır.

Mövzu və elmi-sənətşünaslıq mahiyyəti baxımından bizim tədqiqatlarımıza ən yaxın olan araşdırmalar D.V.Qalkin tərəfindən aparılmışdır[16]. Məqalədə texno-bədii hibridlərin geneologiyası və

---

[7] Məmmədəliyeva S.Y. Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri: monoqrafiya / Bakı : Nurlar NPM, 2006, 224s.

[8] Aslanova R. Qloballaşma və mədəni muxtəliflik. Bakı: Elm, 2004, 264s.

[9] Məmmədzadə İ.R. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 226s.

[10] Мамедов Н.М. Глобализация как современное состояние общественного развития. В кн.: "Эпоха глобальных перемен", М., 2004

[11] Гагарина Л. Н. Роль Интернета в процессе глобализации : автореф. дис. … канд. полит. наук. Бишкек, 2003, 156с.

[12] Абдуллаева Р.Г. Проблема художественного стиля в информационной культуре. Баку: Элм, 2003, 256с.

[13] Тагиев Т.Р. Постмодернизм и проблема традиции в современном изобразительном искусстве. Спец.: 09.00.04. – Эстетика. Автореферат дисс. … канд. философских наук, 2000, 23с.

[14] Елинер И.Г. Развитие мультимедийной культуры в информационном обществе. – Автореферат диссертации … доктора культурологи, 24.00.01 – теория и история культуры, СПб, 2010, 40с.

[15] Познин В.Ф. Выразительные средства экранных искусств: эстетический и технологический аспект. Автореферат дисс. … д-ра искусствоведения. – СПб. , 2009, 43с

[16] Галкин Д.В. Произведение искусства в эпоху его компьютерного производства. электронный журнал «Гуманитарная информатика», выпуск 4. http://huminf.tsu.ru/e-jurnal/magazine/4/gal.htm

tipologiyası təhlil olunmuşdur. Hibridizasiya və stilizasiyanın fərqli cəhətləri müzakirə olunmuş, onların vəhdəti düsturu təklif olunmuşdur.

Yeni informasiya və kompüter texnologiyalarının bədii prosesin inkişaf dinamikasına təsiri probleminin öyrənilməsi dərəcəsi üzrə araşdırmalar, incəsənətin ayrı-ayrı növlərinə həsr olunmuş elmi mənbələrə baxılmaqla, tərtib olunmuş icmallar və elmi təhlillər konkret başlıqlar altında qruplaşdırmışdır: Təsviri incəsənət; Musiqi; Teatr; Bədii fotoqrafiya; Kinomatoqraf; Televiziya; Multimedia.

Dissertasiyanın "**İnternetin və bədii prosesin qarşılıqlı təsiri və asılılığı**" başlıqlı III fəsli beş yarımfəsildən ibarətdir.

I yarımfəsil "İnformasiya texnologiyalarının yaradıcı potensialı" adlanır. Göstərilmişdir ki, informasiya-kommunikasiya texnologiyaları və İnternet birbaşa və ya dolayısı ilə indi hər şeyə təsir edir. Əsas da budur ki, onlar yaradıcı insanların şüuruna və bununla da bədii prosesin inkişaf dinamikasına, bütövlükdə incəsənətə təsir edir.

İnformasiya texnolgiyalarının və İnternetin inkişafı bir çox yeni yaradıcı peşələr, o cümlədən kompüter qrafikası üzrə dizayner, proqramçı, bloqqer, saytın inzibatçısı, fotoqraf, digey, kino sənayesinin müxtəlif peşələrini və s. yaratmışdır.

II yarımfəsil "Bədii prosesdə yaradıcı təxəyyülün və informasiya-texnoloji komponentin qarşılıqlı təsiri və asılılığı" adlanır. Bu yarımfəsildə incəsənətin müxtəlif növləri üzrə nümunələr əsasında İnternet və bədii prosesin qarşılıqlı təsiri və qarşılıqlı asılılığının qanunauyğunluqlarınının aşkara çıxarılmasına cəhd göstərilmişdir.

***Təsviri incəsənət.*** Hər bir yaradıcılıq – hər şeydən öncə prosesdir. Bu proses ya təxəyyüldən, ya da kənardan tamamilə formalaşmış bir ideya və ya belə ideyaya bir qığılcımdan başlayır. İdeyanı inkişaf etdirmək üçün köməkçi vasitələrə ehtiyac vardır. Yaradıcı adamlar öz yaradıcılıq prosesində belə köməkçi vasitələrə böyük ehtiyac duyur və istifadə edir. Bədii prosesi ideya, yəni təxəyyül ilə onu reallaşdırmağa lazım olan "köməkçi vasitə" arasında dialoq da hesab etmək olar. Bu gün informasiya texnologiyalarının inkişafı sayəsində İnternet bu ideya ilə reallaşdırma vasitələri arasında vasitəçi və mühit rolu oynayır. İnternetin imkanlarından bədii prosesdə ustalıqla istifadə edilməsi intellektin və düşüncə tərzinin rəngarəngliyinin parlaq nümayişidir. Hər bir rəssamın istifadə və uğurlu reallaşdırma üçün bu cür virtual vasitələr arsenalı, öz dəst-xətti və üslubu vardır.

Reallıqda yaradıcı insan İnternetdən "ideyaları oğurlamır", yalnız yeni peşə bilikləri, qabiliyyətləri, vərdişləri və səriştələri öyrənir. Professional

dildə buna distant özünütəhsil deyirlər. Peşəkar yaradıcılıq səriştələrinin artırılması rəssamın özünütəsdiqidir. İnternetin gələcək inkişaf meyllərinin və istiqamətlərinin tədqiqi birmənalı olaraq sübut edir ki, İnternet şəxsiyyətin yaradıcılıq qabiliyyətlərinin və peşə səriştəliliyi səviyyəsinin inkişafına getdukcə daha çox təsir edəcəkdir.

Beləliklə, İnternetə çıxışın olması özünütəhsil və özünü reallaşdırma üçün yeni mühit açır və bununla da şəxsiyyətin peşəkar səriştəlilik səviyyəsinin inkişafına kömək edir.

***Musiqi.*** İnformasiya texnologiyaları elə sürətlə inkişaf edir ki, uzaq perspektiv üçün hər hansı bir proqnoz vermək çox riskli bir işdir. Bununla belə biz tədqiqatlarımızda informasiya texnologiyalarının musiqi xadimlərinin yaradıcılıq prosesinin dinamikasına təsiri qanunauyğunluqlarını aşkara çıxarmağa və musiqili informasiya texnologiyalarının gələcək inkişaf istiqamətlərini proqnozlaşdırmağa çalışmışıq.

*Birinci qanunauyğunluq*, İnternet texnologiyalardan istifadə etməklə distant musiqi təhsili və özünütəhsildir.

*İkinci qanunauyğunluq,* kompüterin və İnternetin əlçatan olması musiqi yaradıcılığı üçün əla imkanlar yaradır. Hər bir adam özünü bəstəkar, səs rejissoru, yeni tembrlərin, səs effektlərinin bəstəçisi və s. kimi sınaya bilər.

*Üçüncü qanunauyğunluq,* informasiya texnologiyalarının ağır zəhmət tələb edən musiqi peşələrini asanlaşdırmasıdır. Musiqili kompüterlər və İnternet bir andaca musiqi bəstələməyin sevincini bəxş edir. Həqiqi istedadı olan musiqiçilər isə mahir ifaçıya çevrilirlər.

*Dördüncü qanunauyğunluq*: Yeni başlayan musiqiçilər üçün İnternet əla dünya meydançasıdır. Belə ki, arzu edən hər bir kəs öz musiqisini bəstələyə və İnternetdə yerləşdirməklə, dünyanın hər bir nöqtəsində dinlənilməsi və bu əsər haqqında dinləyicilərinin düşüncələrinin öyrənilməsi imkanı qazana bilər.

***Teatr sənəti.*** Son illərdə teatr tamaşalarında orkestr və ya instrumental ansambl əvəzinə virtual texnologiyalarla səsləndirilən fonoqramlardan istifadə olunur. Maliyyə çətinliyi olan teatrlar üçün bu iqtisadi baxımdan çox rentabellidir. Burada fonoqramma quruluşçu-rejissorla bəstəkar arasında birinci və sonuncu musiqi həlqəsidir: orkestr məşqlərinə, partituraya, dirijora və səsyazma studiyasına ehtiyac olmur. Tamaşanın quruluşçu rejissorunun istəyinə uyğun olaraq, musiqi müəllifi lazım olan sürəkliyə malik musiqi epizodu hazırlayır və onu stereofonik səs formasında həyata keçirir. Musiqi texnologiyalarına ustalıqla yiyələnmiş ustad bəstəkarın ifa etdiyi fonoqramma ecazkar orkestr ifası kimi

tamaşaçını valeh edə bilər. Ancaq fonoqrammanı teatrın divarları arasında mümkün olmayan əlavə fantastik musiqi effektləri ilə də zənginləşdirmək olur.

Max/MSP tipli proqramlar müasir teatr sənətinin inkişafına əhəmiyyətli töhfə vermişdir. Bu virtual proqramlaşdırma mühitinin mühüm imkanlarından biri də budur ki, musiqi aktyorun hərəkətlərini hiss edir. Bu gün dünyanın aparıcı teatrlarında aktyorların və rəqqasların hərəkətlərinə reaksiya verən yeni istiqamət yaranmışdır. Başqa sözlə artıq rəqqas musiqiyə görə deyil, musiqi rəqqasın hərəkətlərinə görə uzlaşır.

Son illərdə dünyanın aparıcı teatrlarındakı tamaşaların qoyulmasında yeni texnologiyalardan uğurla istifadə olunur. Səhnədə yaradılması mümkün olmayan mürəkkəb epizodları və şəraiti video-kadrlarla əvəz edirlər. Səhnəşünaslığın mühüm elementi olan video-installyasiyalar və video-effektlər tamaşanın qoyuluşunda mühüm yer tutur. İngiltərənin "1927" teatr şirkətinin qoyuluşunda "Heyvanlar və uşaqlar şəhəri işğal etmişlər" tamaşası, Tayvanın "Anarchy Dance" teatrının tamaşaları bütün dünyada geniş rezonans doğurmuşdur.

Azərbaycan Milli Akademik Dram Teatrının "Qatil" və "Şah və şair" tamaşalarında, "Zəfər" yaradıcılıq studiyasının qoyuluşunda "Afinalı Timon" tamaşası, Dövlət "Yuğ" teatrının "Sərhəddə" tamaşasında, habelə "Üns" teatrının bir sıra tamaşalarında yeni texnologiyalardan istifadə edilmişdir.

Müasir teatr sənətinin təkamülü ikili xarakter daşıyır. O, yalnız sosial-mədəni paradiqmanın dəyişməsi ilə deyil, həm də bədii prosesdə istifadə olunan yeni texniki və texnoloji imkanların yaranması ilə əlaqədardır.

***Bədii fotoqrafiya.*** İnternet fotoqrafiya sənətinin inkişafına mənfi təsir edir. Birincisi, ona görə ki, aşağı keyfiyyətli şəkillərin İnterneti doldurması nəticəsində bu sahədə tələbat səviyyəsi aşağı düşür, İnternetin foto-qalerayası zibillənir. İkincisi, müxtəlif professional bloqlardan şəkillərin oğurlanması bacarıqlı fotoqrafların gəlirini azaldır.

Bu prosesdə müsbət tərəflər də vardır.

*Birincisi*, İnternet fotoqraflara öz işlərini nümayiş etdirmək imkanı verir.

*İkincisi*, fotoqraflar başqa ölkələrdən olan həmkarları ilə ünsiyyət yarada bilərlər və peşəkar-ustalardan bu işin incəliklərini öyrənə bilərlər.

*Üçüncüsü*, hər bir professional fotoqraf bilir ki, o nəyi bəyənir. Buna görə də, öz işlərini İnternetdə yerləşdirməklə marketinqlə məşğul olmuş olur.

***Kinomatoqrafiya.*** Yeni informasiya texnologiyalarının, o cümlədən də İnternetin yaranması sayəsində kinomatoqrafiya özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Yeni texnologiyaların spesifikliyi kinomatoqrafiyada qeyri-xətti montaj edilməsində və bunun da nəticəsində yaranan dil, obraz və kommunikasiya imkanlarında özünü göstərir. İnternet texnologiyalar sayəsində kinonun dili genişlənir. Son illərin kino məhsulları üzrə apardığımız təhlillər əsasında kinomatoqrafiya sahəsində bədii prosesin bir sıra inkişaf qanunauyğunluqlarını aşkara çıxarmaq olmuşdur ki, bunlar da kinonun estetikasını dəyişməyə kömək etmişdir.

*Birincisi*, kadrın quruluşu ənənəvidən fərqlənir, burada müxtəlif çərçivələrdən istifadə etmək imkanı vardır. Filmdə hadisələr eyni vaxtda bir-birinin üstünə qoyulur ki, bu da filmi çoxlaylı edir. Bunun nəticəsində film İnternetə oxşayır.

*İkincisi,* bu kollajlardan[17] istifadə və mizan-səhnənin[18] yaradılmasıdır. Kollajın bütün layları eyni vaxtda görünür. Bunun üçün yarımşəffaf qatlardan istifadə olunur ki, bunlar vizual cərgə yaradır. Kollajlar bir-birinə keçə bilər, laylar isə yerlərini elə dəyişə bilər ki, hadisələr tamaşaçının gözləri qarşısında eyni vaxtda bir neçə variasiyalarda baş verə bilər. Bu da səhnənin ənənəvi anlamından fərqlənir. Kollajlardan və pəncərələrdən istifadə edilməsi məkan və zamanca müxtəlif olan hissələri vizuallaşdırmağa imkan verir.

Rəqəmsal texnologiyaların istifadə olunması istənilən obyekti kadrın elementinə çevirir, simvolları, hərfləri, səsləri, interyeri, rəqəmləri vahid halda birləşdirir və müəyyən məna yükünə uyğun olaraq vizuallaşdırır. O cümlədən, kollajlar ekranda əlavə nəql etməyə imkan verir. Beləliklə də, səs kinonun dərk olunmasının əsas mənbəyi olmur, vizual cərgə birinci yerə çıxır.

Bu gün yeni informasiya texnologiyaları sayəsində kinonun, televiziyanın, videonun və multimedianın müxtəlif parametrlər üzrə aktiv qarşılıqlı təsiri prosesi gedir.

***Televiziya.*** Bu gün audiovizual yaradıcılığa kompüter texnologiyalarının müdaxiləsi nəticəsində televiziya özünün yeni inkişaf mərhələsinə daxil olur. Bunun sayəsində müxtəlif kommunikasiya vasitələrinin (kino, televiziya, İnternet, mobil telefon) inteqrasiyası meylləri hiss olunur.

---

[17] kollaj – təsviri incəsənətdə üsul. Hər hansı əsas üzərinə ondan rəngi və fakturası ilə fərqlənən müəyyən materialların yapışdırılması.

[18] mizan-səhnə – teatr terminidir. Tamaşanın müəyyən anında səhnədə aktyorların bir-birinə və onları əhatə edən rekvizitə nəzərən yerləşmə mövqeyi.

Nəticədə gözlərimiz qarşısında ekran mədəniyyəti həm informasiya, həm də texnoloji baxımdan vahid şəklə düşür.

Yeni rəqəmsal texnologiyaların ən mühüm xüsusiyyətlərindən biri onun interaktivliyidir. İnteraktivlik nəticəsində ekran mədəniyyətinin istifadəçisi passiv istehlakçı olmaqdan çıxaraq, kommunikasiya prosesinin fəal iştirakçısına çevrilir.

Texnologiyanın öz obrazlılığı, metaforikliyi, əşyanın güzgü əksini yaratmaqdan qaçılması kimi xüsusiyyətləri ilə bədii yaradıcılıq sahəsinə müdaxiləsi ekran sənətinin ifadə vasitələrinin təkamülünü əyani olaraq nümayiş etdirir.

III yarımfəsil "İnternetin bədii prosesin inkişaf dinamikasına təsirinin neqativ tərəfləri" adlanır. Əvvəldən ümumdünya qlobal şəbəkə birinci növbədə kommunikasiya vasitəsi kimi düşünülmüşdü və onun mahiyyətində pis bir şey yox idi. Sonradan İnternetin təsiri o qədər genişləndi ki, bu gün İnternet analitik fəaliyyəti azaltmaq, insanı informasiyaların düşüncəsiz istifadəçisinə çevirmək, mənasız "vaxt öldürmək" vasitəsi, ondan asılılıq, o cümlədən insanların real ünsiyyətini əvəz edən İnternet – ünsiyyətdən asılılığın yaranması kimi neqativ tərəfləri vardır.

Bütün dünyada milyonlarla insan İnternetdən istifadə edir, hazır intellektual məhsulları çıxarır, surətini edir və yazırlar. Əksər hallarda bu əməyin haqqı ödənilməmiş olur. Bu baxımdan piratlıq problemi çox kəskinləşir.

Müasir audiovizual məhsulların istehsal texnologiyasının sadələşməsi və miqdarının daim artması, bir tərəfdən, audiovizual əsərlərin yaradıcılıq səviyyəsinin qiymətləndirilməsi kriterilərinin azalmasına gətirə bilər (bəlkə də artıq gətiribdir), digər tərəfdən isə ekran yaradıcılığının kəskin olaraq elitar və kütləvi kateqoriyalara bölünməsini də qeyd etmək lazımdır.

Hakerlik, smart mob, flaş mob, art mob və s. İnternetin neqativ təzahürlərinin müxtəlif formalarıdır.

IV yarımfəsil "Şəbəkədə bədii prosesin İnternetin inkişaf dinamikasına təsiri" adlanır. İnternetin bədii prosesin inkişaf dinamikasına təsiri ilə paralel proses də gedir, başqa sözlə rəssamlar da şəbəkədəki bədii prosesə təsir edirlər. Şəbəkə rəssamı və şəbəkədə bədii proses fenomenləri ilk dəfə bizim tərəfimizdən təsnif edilmişdir.

V yarımfəsil "Sintetik incəsənət" adlanır. Texnologiyaların inkişafı müasir incəsənətin üslubiyyatına fəal təsir edir. İncəsənət və texnologiyalar qarşılıqlı surətdə bir-birinə nüfuz edir və nəticədə yüksək texnologiyalar üslubu *high-tech* ("hay-tek", ing. *high-tech*) yaranır. Biz bu yaxınlaşmanı

və qarşılıqlı nüfuzetməni incəsənətin və texnikanın konvergensiyası adlandırırıq. Bu qarşılıqlı müdaxilə nəticəsində incəsənət texnolojiləşir, texnologiyalar isə estetikləşir. Forma-yaratma baxımından bu proseslər sırf texnoloji formaların bədii formalar aləminə nüfuz etməsinə gətirib çıxarır. Bu estetik üslublaşmadır. Estetik kontekstdə *high-tech* üslubu, həm müasir texniki formaların bədii dəyərini, həm də ona kritik, skeptik münasibəti qəbul edir.

Yeni informasiya və kompüter texnologiyaları bədii prosesin xarici hərəkətverici qüvvəsi kimi zəmanəmizin reallığıdır, sosial-varlıqdır. Sosial varlıq dəyişərək incəsənət qarşısında həll edilməmiş problemlər qoyur. Bədii prosesin inkişaf dinamikası sosial durumla əlaqədar olsa da, bədii təfəkkürün ziddiyyətləri onun daxili hərəkətverici qüvvəsidir. Günümüzün reallığı bədii inkişafa nəzərən xarici amildir. İncəsənətin öz ziddiyyətləri, ənənələri, bədii qarşılıqlı təsirlər isə bədii inkişafın daxili amilləridir.

İncəsənətin əvvəlki tarixi inkişaf dövrlərindən fərqli olaraq informasiya-kommunikasiya texnologiyaları bir tərəfdən xarici hərəkətverici qüvvə qismində sosial durumu formalaşdırır, eyni zamanda da daxili qüvvə qismində incəsənətin yeni növlərinin, yəni sintetik incəsənətin yaranmasını stimullaşdırır.

Yeni texnologiyaların təsiri altında memarlıq və musiqi daha çevik yenidənqurmaya məruz qalmışdır. Memarlıq və musiqi sənəti nümunəsində araşdırdığımız üslublaşma və kompüter-bədii konvergensiya probleminə daha dərindən nəzər salınmışdır.

***Memarlıq.*** Müasir memarlıqda *high-tech* üslubunun – dekonstruktivizmin – görkəmli nümayəndələri Frenk Qeri və Zaha Hədidin yaradıcılığı təhlil olunmuşdur. Dekonstruktivizm – xarici və daxili təbəqələrin parçalanması, destruksiyası və deformasiyası ilə bərabər, həm də, qopan həcmlər, gobud, kələ-kötür səthlər, sınıq-xətli ənənəvi memarlıq elementlərindən istifadə olunmasıdır.

Dekonstruktivizm memarlığının ən gözəl nümunələri, Frenk Qerinin Bilbaoda (İspaniya) Quqqenheym muzeyi, Los Anjelesdə Uolt Disney adına konsert zalı və Sietldə (ABŞ) musiqi muzeyidir. Zaha Hədidin Bakıda yaratdığı Heydər Əliyev Mərkəzi hamımızın qürur mənbəyidir. Bu əzəmətli binada Zaha Hədid ənənəvi memarlığın qanunları sındırmağa və vərdiş olunmuş məkanın çərçivələrini “dartmağa”, ona güclü dinamik impuls verməyə can atmışdır. Zaha Hədid konstruksiyanın daxili hərəkətini və deformasiyasını gücləndirmək məqsədi ilə ümumi qəbul olunmuş həndəsədən çıxaraq, təhrif olunmuş perspektivdən, iti bucaqlardan və əyri xətlərdən istifadə etmişdir.

***Musiqi.*** İnformasiya texnologiyaları qeyri adi - elektron musiqini yaratmışdır. Bu gün musiqi bütövlüklə rəqəmsal formata keçmişdir. Musiqi sənətinin tarixində *high-tech* üslubunun və sintetik konvergensiyanın ən parlaq nümunəsi onlayn-orkestrdir. 16 aprel 2009-cu ildə Karneqi-holl konsert zalında dünyada birinci onlayn-orkestrin çıxışı olmuşdur. Bu konsertdə üç saat ərzində 15 klassik əsərdən parçalar ifa olunmuşdur.

Bu yarımfəsildə həmçinin yeni texnologiyaların kinomatoqrafiyaya, təsviri incəsənətə təsiri nümunələri, andeqraund haqqında məlumatlar verilmiş, sintetik incəsənətin *arthaus, performans, qraffiti, heppeninq* kimi növləri xarakterizə olunmuşdur.

Yaxın gələcəkdə bədii prosesin inkişafında aparıcı üslub kimi "sintetik incəsənət"in yaranması, bədii çoxçalarlılığın olması, kütləvi və elitar mədəniyyətlər arasında fərqlərin hamarlanması meyllərini göstərmək olar.

Dissertasiyanın "**İnternet və Azərbaycanda bədii prosesin inkişaf dinamikası**" başlıqlı IV fəsli dörd yarımfəsildən ibarətdir.

Azərbaycanda informasiya-texnologiyalarından istifadə mədəniyyətinə təsir edən amillərin və şəraitin təhlili aşağıdakı xüsusiyyətləi aşkara çıxardı: İnternetə giriş üzrə ilk təcrübə, yeni texnologiyalarla işləmək zərurətinin dərk edilməsi və vərdişlər qazanılması orta məktəbdən başlayır, ali məktəbdə daha da təkmilləşir; Azərbaycan sakinlərinin iş yerindən, habelə evdə şəxsi kompüterindən İnternetə girişinin təmin olunması ölkəmizin yüksək iqtisadi və mədəni inkişafı sayəsində mümkün olmuşdur. İnternet xidmətlər üzrə təkliflərin artma tempi, onların keyfiyyətinin mütəmadi olaraq yüksəlməsi şəraitində İnternet auditoriyanın artma tempini üstələyir ki, bu da Azərbaycanın İnternet bazarında doymanın olması ilə əlaqədardır. Informasiyaların İnternetdə yerləşdirilməsi prosedurlarının sadələşdirilməsi, saytların qeydiyyat rüsumlarının, şəhərimizin provayder təşkilatlarının respublika əhəmiyyətli saytlara giriş tariflərinin aşağı salınması nəticəsində veb-resursların güclü artımı müşahidə olunur. Azərbaycanın İnternet sistemi bir-biri ilə qarşılıqlı surətdə bağlı olan texnoloji komponent (hostların sayı, provayder təşkilatlarının infrastrukturu və s.), resurslar və informasiya komponenti (İnternet şəbəkədə informasiya dolğunluğu), sosial komponent (İnternet-auditoriya və İnternet-qruplar) və s. komponentlərdən ibarətdir.

Dissertasiyanın **"Əsas nəticələr"** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir, aparılmış araşdırmalara yekun vurulur və tədqiqat nəticəsində əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Şah İsmayıl Xətayi və ana dilimiz. – "Heydər Əliyev və dilimiz, ədəbiyyatımız, tariximiz" Respublika elmi-nəzəri konfransının tezisləri, (18-19 aprel, 2003), Bakı, "ADU-nun nəşriyyatı", 2003, s.48-49.
2. About the Portraits of Shah Ismail (Khatai) available in Uffici Gallery, British Museum and Topkapi Museum. – Bakı Slavyan Universitetində "Müasir tərcüməşünaslığın və mədəniyyətşünaslığın aktual problemləri" mövzusunda II Tələbə elmi-praktik konfransında edilən məruzələrin tezisləri, (18-19 dekabr 2003-cü il), Bakı, BSU-nin "Kitab aləmi" nəşriyyatı, 2003, s.92-95.
3. About Portraits of Shah Ismail Khatai. – Proceedings of the Conference "Actual Problems of Science and Culture in Azerbaijan", (June 3-5, 2003, Baku, Azerbaijan), Baku, "Western University Publ.," 2003, volume 3, p.69-71.
4. Şah İsmayılın Florensiyadakı portreti haqqında. – AMEA Şərqşünaslıq İnstitutunun "Elmi araşdırmalar" jurnalı, 2004, № 1-2, s.177-180.
5. Azərbaycan gəncliyi və tarixi-mədəni irs. – "Dəyişən Dünya və Gənclik" Beynəlxalq tələbə elmi konfransı, Qafqaz Universiteti, 30 aprel 2004-cü il. S.3-10.
6. Şah İsmayılın Londondakı portreti haqqında. – AMEA Şərqşünaslıq İnstitutunun "Elmi araşdırmalar" jurnalı, 2004, № 3-4, s.219-222.
7. Database Evoluation of Cataloguing Rules for Museum Exhibits and Ancient Manuscripts. – "Elm və Təhsildə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi" mövzusunda Beynəlxalq konfrans, Bakı, 16-17 sentyabr 2004-cü il, s.34-36.
8. Технологическая мультимедийная среда и особенности современного изобразительного искусства. – В сб.: «Проблемы и перспективы гуманитарной науки в контексте глобализации», Материалы из лучших докладов II Международной научно-практической конференции, Йошкар-Ола, Россия, 15 февраля 2012г., 180с. с.86-89. (по решению ВАК России).
9. Mədəni informasiya daşıyıcılarının inkişaf qanunauyğunluqları. – İncəsənət və Mədəniyyət Problemləri jurnalı, 2012, № 3, s.82-90.
10. Интернет – точка опоры XXI века. – Материалы Первой международной научной конференции «Наука в XXI веке», 25-26 августа 2012г, Баку, Азербайджан, с.18-20.

11. Наскальные рисунки – древнейшие информа-ционные носители культуры: Гобустан (Азербайджан), Альта (Норвегия) и Танум (Швеция). – Материалы XVI Ежегодной международной научно-практической конференции АДИТ–2012. (Электронный ресурс). http://kizhi.karelia.ru/library/adit-2012-t/857.html
12. Влияние интернета на самореализацию творческого потенциала личности. – Пятая Международная конференция «Человек – Культура – Искусство – Творческая личность», Луганская Государственная Академия Культуры и Искусств, 4 – 6 февраля 2013г. (Электронный ресурс) http://lgiki.com.ua/forum/vliyanie-interneta-na-samorealizaciyu-tvorcheskogo-potenciala-lichnosti
13. Искусство в современном информационном обществе. – Материалы Межд. научно-практической конференции «Наука в современном информационном обществе» 3-4 апреля 2013 г., Москва, “GreateSpace” Publ., USA, 2013, том 1., с.8-9.
14. Интернет и интеллектуализация литературы. – Журнал: Культура народов Причерноморья, 2014, № 273, с.130-133.
15. Новые «языки» культуры: Взаимовлияние Интернет технологий, телевидения и кино. – Вестник Томского Государственного Педагогического Университета, 2014, № 1, с.56-58.
16. Влияние новых информационных технологий на характер театрального спектакля. – İncəsənət və Mədəniyyət Problemləri jurnalı, 2013, № 3, s.85-91.
17. Интернет и современное изобразительное искусство. – V Всеукраинская научно-практическая конференция «Становление изобразительного искусства в современном социокультурном пространстве», 20 – 21 февраля 2014 г. г.Луганск, Украина (в печати).
18. The Internet and self-improvement of the creative person. – International Scientific and Practical Conference “Actual Issues of Multilingual Education development at Modern Stage” devoted to the 70th Anniversary of the Kazakh State Women’s Teacher Training University, 25 April 2014, Almaty, Kazakhstan, pp.479-480.
19. Наскальные рисунки – информационные носители культуры. – Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2014, № 5, s.194-197.
20. Müasir bədii prosesdə yaradıcı təxəyyülün və audiovizual komponentin qarşılıqlı təsiri və asılılığı. – İncəsənət və Mədəniyyət Problemləri jurnalı, 2014, № 3, (çapdadır)

**Эльшад Вугар оглы Алиев**

## ИНТЕРНЕТ И ДИНАМИКА РАЗВИТИЯ ХУДОЖЕСТВЕННОГО ПРОЦЕССА

## РЕЗЮМЕ

Диссертация состоит из введения, четырёх глав, заключения, альбома иллюстраций и списка использованной литературы.

**Во введении** обосновываются актуальность темы, степень изученности, теоретические и методологические основы, цели и задачи, научная новизна и практическое значение работы.

**Первая глава** - «Создание и формирование информационного общества» посвящена вопросам зарождения и формирования информационного общества. Здесь, обосновывается постановка задачи исследования. Исследованы закономерности развития носителей культурной информации и средств коммуникации, формирующие информационное общество человечества в различных этапах истории. Далее исследована динамика зарождения информационного общества.

**Вторая глава** - «Особенности художественного процесса в эпоху информационных технологий». Раскрывается сущность генезиса информационного общества и постмодернизма. Исследованы вопросы восприимчивости, художественного сознания и творческих процессов в эпоху информационных и компьютерных технологий. В последнем параграфе второй главы, установлена степень изученности проблемы.

**Третья глава** – «Взаимовлияние и взаимозависимость Интернета и художественного процесса». Установлен созидательный потенциал информационных технологий. Исследованы взаимовлияние и взаимозависимость творческого мышления и информационно - технологической компоненты в художественном процессе. Рассмотрены негативные стороны влияния Интернета на динамику развития художественного процесса. Показана роль художественного процесса в сети на динамику развития Интернета. Исследованы синтетическое искусство, а также вопросы стилизации и компьютерной - технологической конвергенции в художественном процессе.

**В четвертой главе** - «Интернет и динамика развития художественного процесса в Азербайджане» исследованы вопросы взаимовлияния и взаимозависимости Интернета и динамики художественного процесса в Азербайджане.

**В заключении** обобщаются выводы, полученные в результате исследования.

**Elshad V. Aliyev**
**THE INTERNET AND DYNAMICS**
**OF THE DEVELOPMENT OF ART PROCESS**

## SUMMARY

The dissertation consists of the introduction, four chapters, the conclusion, an album of illustrations and the list of the used literature.

**In introduction** the theme urgency, degree of a level of scrutiny, theoretical and methodological bases, the purposes and problems, scientific novelty, theoretical and practical value of work are proved.

**The first chapter** is devoted issues of origin and formation of an information society. Here, first of all research problem statement is proved. Then on the basis of rich historical-cultural material laws of development of carriers of the cultural information and the communication media, mankind forming an information society in various stages of history are investigated. Further dynamics of origin of an information society is investigated.

**The second chapter** «Features of art process during an epoch of information technology». Here, the essence of genesis of an information society and a postmodernism first of all reveals. Further issues of a susceptibility, art consciousness and creative processes during an epoch of information and computer technologies are investigated. In last paragraph of second chapter, degree of a level of scrutiny of a problem is established.

**The third chapter -** «Interference and interdependence of the Internet and art process». Here, first of all the creative potential of information technology is established. In the second paragraph interference and interdependence of creative thinking are investigated and is information - technological components in art process. In the separate paragraph negative sides of influence of the Internet on dynamics of development of art process are considered. The role of art process in a network on dynamics of development of the Internet is shown. In the end of chapter synthetic art, and also issues of stylization and computer - technological convergence in art process is investigated.

**In the fourth chapter** issues of interference and interdependence of the Internet and dynamics of art process in Azerbaijan are investigated.

**In the conclusion** the results of research are generalized.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВ**

*На правах рукописи*

**ЭЛЬШАД ВУГАР оглы АЛИЕВ**

# ИНТЕРНЕТ И ДИНАМИКА РАЗВИТИЯ ХУДОЖЕСТВЕННОГО ПРОЦЕССА

*6203.01 – Теория, анализ и критика искусства*

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по искусствоведению**

**Б А К У - 2014**